# Kəlmə-kəlmə gəzdim dildə-ağızda



*İSMAYI MƏRCANLI İMANZADƏ*

## NƏYİNİ SEVMİŞDİN SƏN BU ŞƏHƏRİN...

Dolanmaz başına nə yol, nə cığır,
Bomboz "sifətindən" zəhrimar yağır.
Yapışmaz qolundan ha səslə-çağır -
Nəyini sevmişdin sən bu şəhərin?!

Əzəldən çox görüb o, "get-gəlləri",
Azdırıb qoynunda nabələdləri.
Yolunu kəsibsə quduz itləri -
Nəyini sevmişdin sən bu şəhərin?!

Üstündə bir zərrə haqq işığı yox,
Açıq səması yox, göy qurşağı yox.
Bal kimi ləhcəsi, danışığı yox -
Nəyini sevmişdin sən bu şəhərin?!

Yaxşılıq etsən də biləsi deyil,
Varlığın gözünün giləsi deyil.
Sənin ki, dərdindən öləsi deyil -
Nəyini sevmişdin sən bu şəhərin?!

Üstünə düşəsi kölgəsimi var,
Səni ovunduran xoş səsimi var?
Ruhunu oxşayan nəfəsimi var -
Nəyini sevmişdin sən bu şəhərin?!

Bənzəmir nə ocaq, nə dam yerinə,
Qoymayıb kasıbı adam yerinə...
Dartıbsa çoxların edam yerinə -
Nəyini sevmişdin sən bu şəhərin?!

Ölçdün sağa-sola küçələrini,
Yorub səndən qabaq neçələrini.
Kim görüb füsunkar gecələrini -
Nəyini sevmişdin sən bu şəhərin?!

Hərdənqarışsan da burdaaxına,
Qoydumugələsənbirazyaxına?
Birqara div kimigiribyuxuna -
Nəyinisevmişdinsənbuşəhərin?!

Ha gözlə, sularıdurulmaz, axsa,
Zəhəryağdıracaqüzünə, baxsa.
Birşirin salamı-kəlamıyoxsa -
Nəyinisevmişdinsənbuşəhərin?!

### Hara qeyb oldunuz, ərən kişilər...

. . .

Gümüşü papaqlı, boz kəhər atlı,
Cümləsi bir batman, kəlməsi dadlı,
Laydivar kürəkli, qollu-qanadlı,
Çox-çox uzaqları görən kişilər -
Qeyrətli-namuslu ərən kişilər!

Özgə qismətinə göz dikməzdiniz,
Heç vədə səbəbsiz qan tökməzdiniz.
Namərd qarşısında diz çökməzdiniz,
Düşmənin bağrını yaran kişilər -
Dilsizin halını soran kişilər!

Yaltağa-yalmana gəc baxardınız,
Kasıb tapdanmazdı, harda vardınız!
Halal duz-çörəklə bəxtiyardınız,
Nəfsinin ağası olan kişilər -
El-oba qeydinə qalan kişilər!

Niyə qaçıb bizdən aralandınız,
Vətən, torpaq idi axı, andınız!
Kimlərin hökmüylə uralandınız,
Dost üçün canından keçən kişilər -
Dünyadan nigaran köçən kişilər!

Getdiniz... yurd qaldı nəfsi aclara,
İndi əl uzadan çoxdu "baclara"...
İnsanlıq girovdu ehtiyaclara,
Mizan-tərəzili, düzən kişilər -
Tüpürüb dövranın boz sifətinə,
Bu fani dünyadan bezən kişilər!

Solub-saralmamış bir yarpaq kimi
Budaqdan vədəsiz qopan kişilər,
Mərdlərin qanına hopan kişilər!
Haqqı-ədaləti bu dünyada yox,
Gedib axirətdə tapan kişilər!
01.07.2022

### İnsan

Bir az ağıllısan, bir az da dəli,
Sənin xilaskarın Tanrının əli!
Qocalıq urvatsız payız xəzəli,
Cavanlıq yamyaşıl yarpaqdı, insan!

Nəfsinlə quranda özünə tələ,
Tapdanmış mənliyin ta düşməz ələ!
Ağlına gələni gətirmə dilə,
Yalan lüt-üryandı, çılpaqdı, insan!

Xoşbəxtsən, abırın-ismətin varsa,
Öl qurtar, ən çirkin xislətin varsa!
Gec-tez üzə çıxar qismətin varsa,
Atılıb-düşməyin nahaqdı, insan!

Nə əcəldən gizlən, nə gözdən yayın,
Bir gün sona çatır bil, ömür payın.
İstər daxman olsun, istər sarayın,
Sonuncu "mənzilin" torpaqdı, insan!
12.07.2022

### Niyə gözümdən düşdün...

. . .

Gözlərim "aynabənd"di,
Ürəyim açıq qapı.
Əlindəydi ömrümün
Xatirələr "kitabı".

Səndən nə yolum-izim,
Nə sirrim gizli idi.
Ülvi məhəbbətim də
Çiçək bənizli idi...

Axı, bir vaxt özün də
"Qəlbindəyəm"-demişdin.
Qapım bağlı deyildi,
Niyə gözümdən düşdün?..
04.08.2022

### Şeirimlə edirəm dualarımı...

. . .

Hər kəlməm, hər misram xeyir-duamdır,
Haqq sevən insanam, bilənlər-bilir.
Çöhrəmdə nur saçan şeir,-duamdır,
Ruhumdan su kimi süzülüb gəlir!

Dirilik diləyib torpağa, suya
İşığı, havanı öyən adamam!
Kimlərsə çatanda kama-arzuya,
Tanrıya həmd olsun,-deyən adamam!

Bəzən şükr etmişəm yaman günə də,
Elə zənn etməyin bir parça daşam.
Təkcə özümə yox, özgəsinə də
Yaxşı gün-güzəran arzulamışam...

Nəfsimə ağalıq etmişəm hər an,
Süfrəmə dad verib halal qazancım.
Məddahı qabağa dartıb aparan
Ucuz "şan-şöhrətə" yoxdur inancım!

Mənim dualarım yurd savaşımdır,
Vətən, bayraq eşqim hər şeydən öncə!
Şəhidlər ən əziz can sirdaşımdır,-
Adları yadımdan çıxmaz ölüncə!..

Hər misram tapdığım gizli xəzinə,
Kimsə ala bilməz əldən varımı.
Səhərlər oyanıb azan səsinə,
Şeirimlə edirəm dualarımı!..
08.08.2022

### Yazıram

Yolçusuyam neçə yolun, küçənin,
Xoş halına hər yanımdan keçənin...
Dan ulduzu zülmət donlu gecənin
"Yuxusunu yoz"- deyəndə yazıram!

Sübh şəfəqi bələdçisi yolların,
Şehli çəmən çırmalayar "qolların".
Dəli könlüm səssiz keçən anların
"Sükutunu poz"-deyəndə yazıram!

Sevda yolu nə axırdı, nə əzəl,
Xoş günlərə uzalıdır neçə əl.
Baxışları alov saçan bir gözəl
"Belə olur naz"-deyəndə yazıram!

Namərd bir kəs tapdasa da bəxtimi,
Söz mülkündə özüm qurdum taxtımı.
Əbəs yerə itirmərəm vaxtımı,
İlham pərim "yaz"-deyəndə yazıram!
14.08.2022

### Əllərim

Gah şeirimlə şəkilini çəkmişəm,
Gah gözümün işığına bükmüşəm.
Bir zamanlar öz baxçamda əkmişəm,
Ovuc-ovuc tumdu-dəndi əllərim.

Dönüb durna avazına payızda,
Kəlmə-kəlmə gəzdi dildə-ağızda.
Misra-misra yarpaqlayıb kağızda,
Barmaq-barmaq pörələndi əllərim.
25.08.2022

### Bəsimdir

Get, yaxşı yol, bir də sevsən hər kimi,
Qoy, sevincin şəfəq saçsın zər kimi.
Təkcə mənim saf eşqimi sirr kimi -
Ömrün boyu saxlasan da bəsimdir.

Həsrətindən dodaqlarım çatlayıb,
Sızlayıram dizlərimi qatlayıb.
Xəyalında səddi keçib, adlayıb-
Hərdən məni yoxlasan da bəsimdir.

Sənsiz dəmə, bir yanıqlı dilmişəm,
Tənhalıq da göz yaşıymış,-bilmişəm.
Eşitsən ki qərib eldə ölmüşəm-
Bircə ağız ağlasan da bəsimdir...

### Tələsmə...

. . .

Bağlanmayıbsa üzünə
Umub-küsdüyün qapılar,
Qoy, kim sevmirsə, sevməsin,
Səni də sevən tapılar!

Lənətləmə öz bəxtini,
Nəyin əskikdir ki nəyin?
Qismətin hələ yol gəlir,
Hökmünü gözlə taleyin!

Dünyanın sonu deyil ki...
Hər şeyin geci-tezi var.
Bəxt oyaq olmur həmişə,
Onun da zülmət üzü var...

Səsləyib yoldan eləmə
Qayıdan deyilsə gedən.
Çırtlayacaqdır çiçəyin
Nə vaxtsa çatanda vədən!

Tək bircə qığılcımla da
Alışa bilirsə ocaq,
Tələsmə, bir gün səni də
Sevən bir kəs tapılacaq!..
29.07.2022

### Demə

Gedirsən dinməz get, nə danış, nə din
Qəlbinə hakimmiş bu qəzəb, bu kin.
Axırda bildim ki, bəlalaı sevgin
Boynuma dolanan ilanmış demə.

Közlərim ta gəzməz bir də kölgəni,
Get ayrı bir səmtdə göyərt "bəlkəni".
Vaxtında tanıya bilmədim səni,
Hər kəlmən bir şirin yalanmış demə...
08.03.2020

### Bilmirəm nə deyim...

. . .

*(Bir qadına)*

Halallıq ömrümün mayası-ilki,
Alıb-altatmağı peşə bilmədim.
Elə qorxutdu ki, gözümü sevgi,
Mən onu heç zaman nəşə bilmədim...

Durub dönük üzlü bəxtə nə deyim,
Bir vaxtlar saplağım üstündə yandım.
Dilimə yapışıb qaldı gileyim,
Zülmətdə qərq oldu ilqarım-andım.

Məhəbbət gizlicə közərən oddu,
İşığı həmişə göz qamaşdırır.
Sevgiyə çək-çevir, düşüncə yaddı,
Gəlişi adamı yaman çaşdırır...

Üzündən bəllidir həyan-ismətin,
Yazağzı açılan zərif çiçəksən.
Bəlkə də yol gəlir hələ qismətin,
Tələsmə, nə vaxtsa seviləcəksən.

Ömrüm bir sazaqlı-şaxtalı qışdı,
Xoşbəxt edə bilməz uçuq dam səni!
Nə ürək o ürək, nə yaş o yaşdı,
Çətin ki sonacan yaşadam səni...

Eşqin dil açanda düşündünmü heç,
Mənim taleyimdən bəlkə halıydın?
Bilmirəm nə deyim, ya mən bir az gec,
Ya da sən çox erkən doğulmalıydın...
23.05.2022

### Desin

Kim alın yazısını
Oxuya bilib, - desin.
Bir vaxt öz arzusuyla
Dünyaya gəlib, - desin.

Həyat nə vaxt dözüb ki,
Hər yetənin nazına?
Kim ərk edibsə gedib
Bir səhvin güdazına...

Yollar eniş-yoxuşlu,
Daş-kəsəkli, köndələn.
Bəzən mənzil başına
Hamıdan tez çatıbdır
Yolla şaytıyıb gələn.

Yazan belə yazıbdır,
Öz səmti var qismətin.
Dilini kim bilib ki,
Uğursuz məhəbbətin?..

İşıq gələn tərəfə
Tutanda üzümüzü,
Kimsə deməyib orda
Divlər gözləyir bizi.

Yürüyürük hər şeyin
Dalınca yorta-yorta.
Yoruluruq hardasa
Bir ömrün dağdan ağır
Yükünü darta-darta...

Sonda anlayırıq ki,
İnsan öz taleyiylə
Hər an baş-başa imiş.
Dünya qosqoca səhnə,
Ömür sonu ölümlə
Bitən tamaşa imiş...
28.04.2020